# Azərbaycan –Türkiyə: Həmrəyliyimizin zəfəri

***Dünya Azərbaycanlılarının Həmrəylik Günü planetin bütün bölgələrində yaşayan və fəaliyyət göstərən soydaşlarımız tərəfindən təntənəli şəkildə qeyd edilir. Xatırladaq ki, 1991-ci il dekabrın 16- da ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması haqqında qərar qəbul edildi. Bu gün dünyada və ölkəmizdə baş verən prosesləri təhlil etdikcə belə bir əhəmiyyətli qərarın qəbulunu ulu öndərimizin uzaqgörənliyinin və müdrikliyinin növbəti təsdiqi kimi dəyərləndirmək olar.***

Müstəqilliyini yenidən qazanmış bir dövlətin həm ölkə daxilində vətəndaş həmrəyliyinə, həm də müxtəlif səbəblərdən Vətəndən uzaqda – ayrı-ayrı ölkələrdə məskunlaşmış həmvətənlərimizin bir bayraq altında səfərbər edilərək, həmrəyliyinə nail olmaqda məqsəd dövlətin gücünə əlavə güc qatmaq idi. Beynəlxalq aləmə Azərbaycan həqiqətlərinin çatdırılmasında, eləcə də, erməni diasporunun və onları dəstəkləyən qüvvələrin ölkəmizə qarşı uzun illər ərzində apardığı çirkin siyasətin qarşısının alınmasında, yaşadıqları ölkələrdə Azərbaycanın yüksək səviyyədə tanınmasında xaricdəki yaşayan azərbaycanlıların mühüm rolu var. Bu mənada, ümummilli liderimiz Heydər Əliyev 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi ilə kifayətlənə bilməzdi. Ulu öndərimizin tapşırığı və rəhbərliyi ilə 2001-ci il 9-10 noyabrda dünya azərbaycanlılarının birinci qurultayı keçirildi. Məhz bu qurultaydan sonra dünya azərbaycanlılarının həmrəyliyinin və səfərbərliyinin təməli qoyuldu. Həmin qurultayda iştirak edən müasir dövlətimizin qurucusunun parlaq nitqi isə həm ölkəmizdə, həm də xaricdə yaşayan hər bir azərbaycanlının gələcək fəaliyyəti üçün yol xəritəsi oldu. Bununla da Heydər Əliyev həm dünya azərbaycanlılarının mənəvi atası, həm də milli birliyimizin ideoloqu, təbliğatçısı və təşkilatçısı oldu.

Qurultayda dünya azərbaycanlıları ilə işin əlaqələndirilməsi üçün xüsusi Milli Koordinasiya Şurası yaradılsa da, ulu öndər xaricdə yaşayan azərbaycanlılarla işin institutsional mexanizmlərlə həyata keçirilməsi, daha doğrusu, onların təşkilanlanması məqsədilə diaspor üzrə xüsusi dövlət qurumu yaratdı. Belə ki, ümummilli liderimizin fərmanı ilə 2002-ci il 5 iyul tarixində xaricdə yaşayan soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Ölkəmizdə diaspor fəaliyyəti də bütün sahələr kimi dövlətimiz və dövlət başçımız tərəfindən ildən-ilə təkmilləşdirilir. “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Qanunun qəbul edilməsi ilə bu problemin həllinin hüquqi tənzimlənməsi də öz təsdiqini tapıb. Ulu öndərimiz hansı xarici ölkədə olursa-olsun, səfər proqramının ağırlığına baxmayaraq, mütləq həmin ölkədə yaşayan azərbaycanlılarla görüşər, onların problemləri ilə maraqlanar, tövsiyə və tapşırıqlar verərdi. Beləliklə, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü milli birlik və həmrəylik ənənəsinə və zəruri ehtiyaca çevrildi. Bu gün fəxrlə deyə bilərik ki, həmvətənlərimizin yaşadığı 70-dən çox ölkədə bu bayram yüksək səviyyədə qeyd edilərək, 50 milyondan çox azərbaycanlını tək bayraq altında birləşdirir.

2003-cü ildən respublikamıza rəhbərlik edən Prezident İlham Əliyev xaricdə yaşayan azərbaycanlılarla sıx əlaqə yaratmağı daim diqqət mərkəzində saxlayıb. Həmin vaxtdan indiyədək dövlətimizin xarici siyasəti,



azərbaycançılıq ideyaları, xalqımızın multikultural və tolerantlıq dəyərləri beynəlxalq aləmdə, eləcə də, yaşadıqları ölkələrdə yüksək səviyyədə təbliğ və təqdir edilir. Bütün bunlarla bərabər, möhtərəm Prezidentimizin sərəncamı ilə Bakıda 8 fevral 2006-cı ildə dünya azərbaycanlılarının II qurultayı keçirildi. Bunun davamı olaraq, ölkə başçısının 6 iyul 2018-ci il tarixli fərmanı ilə Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu yaradıldı. Diaspor fəaliyyətində həmvətənlərimizin və Azərbaycanın dostlarının xidmətlərinin qiymətləndirilməsi, onların dövlət tərəfindən təltif edilməsi məqsədilə Azərbaycan Respublikasının xüsusi medalı təsis edildi.

Xüsusilə qeyd etmək lazımdır ki, həmvətənlərimiz yaşadıqları ölkələrdə yüksək səviyyədə təşkilatlanmışdır. Bu gün Azərbaycan diaspor təşkilatları xalqımıza və qardaş Türkiyəyə qarşı düşmənçilik və əsassız torpaq iddialarının, yalanla yoğrulmuş erməni ideologiyasının ifşa olunmasında və qarşısının alınmasında ardıcıl və sistemli mübarizə aparırlar. Bunun məntiqi davamı olaraq, iki yüz ildən artıq müddətdə Azərbaycan və Türkiyəyə qarşı fitnə-fəsad hazırlayan dünya erməniliyinə qarşı mübarizədə hər iki ölkənin xaricdə yaşayan vətəndaşlarının, eləcə də, Azərbaycan və Türkiyəyə diaspor təşkilatlarının ulu öndərimiz Heydər Əliyevin “Bir millət, iki dövlət” məfkurəsi ilə fəaliyyəti zamanın tələbədir. Möhtərəm Prezidentimiz İlham Əliyev getdikcə susqunlaşan və ermənipərəst mövqe göstərən beynəlxalq təşkilatların, erməni lobbisi və diaspor təşkilatlarının güclü olduğu dövlətlərdə məhz bu iki qardaş ölkənin diaspor təşkilatlarının birliyinin siyasi əhəmiyyətini nəzərə alaraq, 2007-ci il martın 9-da Bakıda Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu keçirildi. Bu forumun keçirilməsi xaricdə yaşayan digər türk xalqlarının diasporları arasında əlaqələrin yaranmasına və inkişafına da öz mühüm töhfəsini vermiş oldu. Bu tarixi forumda hər iki dövlətin prezidentləri iştirak etmişdilər. Forumda çıxış edən dövlət başçımız 2007-ci ildə uzaqgörənliklə “Bir millətin iki diasporu ola bilməz” – deyə səsləndirdiyi və dillər əzbəri olan bu fikirlərinin bugünkü günümüzün ən vacib çağırışı olduğunu göstərir.

Fəxrlə qeyd etmək lazımdır ki, 14 il öncə keçirilmiş həmin forumun nəticəsi idi ki, istər Azərbaycan, istərsə də Türkiyə diaspor təşkilatlarının, eləcə də onların 44 günlük Vətən müharibəsi dövründə birgə fəaliyyətilə erməni diasporunun və lobbisinin ölkələrimizə və dövlət başçılarımıza qarşı böhtan dolu kampaniyalarının ifşa olunmasında əvəzsiz işlər gördüklərinin şahidi olduq. İnanırıq ki, 15 iyun 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Türkiyənin Cümhürbaşqanı cənab Rəcəb Tayyib Ərdoğan və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müttəfiqlik haqqında Şuşa Bəyannaməsinin imzalanması iki qardaş ölkənin diaspor təşkilatlarının, eləcə də, TDT-yə üzv dövlətlərinin vahid siyasət ətrafında fəaliyyət göstərərək, daha böyük uğurlar qazanmasına zəmin yaradacaq.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 11 yanvar.- S.2.